# BSU-da XII beynəlxalq elmi-praktik konfrans

Aprelin 30-da Bakı Slavyan Universitetində (BSU) bu ali təhsil müəssisəsi rəhbərliyinin dəstəyi və Elmi-Tədqiqat Layihələri Laboratoriyasının Azərbaycanşünaslıq və slavistika bölməsinin təşkilatçılığı ilə onlayn formada xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunan "Azərbaycanşünaslığın aktual problemləri" XII beynəlxalq elmi-praktik konfrans keçirilib.

Beynəlxalq elmi-praktik konfransda Rusiyanın, Qazaxıstanın, Özbəkistanın, Qaraqalpaqın tanınmış universitetlərinin, həmçinin respublikamızın ali təhsil müəssisələrinin, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) müvafiq elmi-tədqiqat institutlarının, elmi müəssisə və təşkilatların alim-mütəxəssisləri iştirak ediblər.

Konfransın plenar iclasında BSU-nun rektoru, professor Nurlana Əliyeva "Ümummilli lider Heydər Əliyev və müasir Azərbaycan" mövzusunda məruzə ilə çıxış edib. Rektor bildirib ki, ulu öndər Heydər Əliyevin xalqımızın milli ideologiyası kimi müəyyən etdiyi Azərbaycançılıq ideologiyası bir çox istiqamətləri əhatə edir. Biz tələbə-gənclərimizi bilikli, bacarıqlı, müasir düyagörüşünə malik, peşəkar və yüksəkixtisaslı kadrlar kimi, eyni zamanda xalqını, millətini ürəkdən sevən vətənpərvər, yüksək milli-mənəvi dəyərlərimizə, Azərbaycançılıq ideologiyasına, dövlət və dövlətçiliyə sədaqət ruhunda tərbiyə edib formalaşdırmalıyıq.

Rektor Nurlana Əliyeva qeyd edib ki, bugünkü beynəlxalq elmi-praktik konfrans həm də əlamətdar bir dövrə təsadüf edir. Xalqımız Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı möhtərəm cənab İlham Əliyevin müdrik siyasəti, yenilməz iradəsi, hərbi məharəti, möhtəşəm diplomatiyası, hünəri, rəşadəti və şanlı Azərbaycan Ordusunun igid əsgər və zabitlərinin qəhrəmanlığı nəticəsində Qarabağ uğrunda apardığı ədalətli, müqəddəs və şərəfli Vətən müharibəsində tarixi Qələbə qazandı. Qeyd etmək lazımdır ki, tarixi ədalətin, beynəlxalq hüququn norma və prinsiplərinin bərqərar olmasında və Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsində ulu öndər Heydər Əliyevin müəyyən etdiyi müdrik siyasi kurs və strateji dövlətçilik konsepsiyası mühüm rol oynadı. Böyük qürur hissi ilə deyə bilərik ki, bugünkü müstəqil, hüquqi, demokratik, dünyəvi və hərtərəfli inkişaf edən, yüksək beynəlxalq siyasi nüfuza malik olan Azərbaycan Respublikası ulu öndər Heydər Əliyevin şah əsəridir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dünya miqyasında sayılıb-seçilən, nüfuzlu siyasi lider, mahir diplomat, Qalib Ordunun Müzəffər Ali Baş Komandanıdır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın sülhsevər missiyası, Azərbaycanın dünyada tanıdılması sahəsində həyata keçirdiyi genişmiqyaslı fəaliyyət çox təqdirəlayiqdir.

Konfransın plenar iclasında BSU-nun elmi işlər üzrə prorektoru, professor Rafiq Novruzov, tədris işləri üzrə prorektoru, professor Telman Cəfərov, AMEA-nın Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev,Qərbi Qazaxıstan Universitetinin professoru Tuyakbay Rısbekov, Cənubi Qazaxıstan Universitetinin professoru Aliya Kulumbetova, Qaraqalpaq Dövlət Universitetinin professoru Məleykə Djumamuratova, BSU-nun Azərbaycanşünaslıq və slavistika bölməsinin müdiri, dosent Sadir Məmmədov məruzələrlə çıxış ediblər.

Sonra konfrans öz işini "Ümummilli lider Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi", "Vətən müharibəsi - Qarabağ Azərbaycandır!", "Nizami Gəncəvi və Azərbaycanşünaslıq", "Azərbaycanşünaslıq və filologiya məsələləri", "Azərbaycan tarixi və mədəniyyətinin aktual problemləri", "Azərbaycan iqtisadiyyatı və qloballaşma", "Hüquq və siyasi elmlərin aktual problemləri" adlı bölmələrdə davam etdirib. Bölmə iclaslarında ümumilikdə 127 məruzə dinlənilib, müzakirələr aparılıb.

Azərbaycan müəllimi.-2021.-7 may.-S.3